**Türküstan qəzeti.**-2024.-28 may-3 iyun.-№20.-S.8-9.

# Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri

**XII məqalə**

**Kamal Adıgözəlov**

## Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi.

Azərbaycanın regional və qlobal miqyasda fəaliyyəti son zamanlar ekspertlərin diqqətini çox çəkir. Çünki rəsmi Bakı çoxlarının gözləmədiyi intensivliklə geosiyasi uğurlarını artırır. Xüsusilə Ermənistanla münasibətlərin normallaşması, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması məsələsində Azərbaycan rəhbərliyi nailiyyətlərini davam etdirir. Bu baxımdan Azərbaycanın xarici siyasətinin prioritetləri mövzusu yeni aktuallıqla gündəmə gəlməkdədir. O cümlədən enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin bir-biri ilə sıx əlaqəsi kontekstində Azərbaycanın yaxın gələcəkdə hansı xətti inkişaf etdirəcəyinin siyasi-nəzəri izahı maraq doğurur. Bununla bağlı belə bir tezis müəyyən edilib: "Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi". Bu tezisin geosiyasi-nəzəri təhlili bir çox aspektlərdən əhəmiyyətlidir. Məsələnin bu cəhəti üzərində geniş dayanmağa ehtiyac duyuruq.

### Cənubi Qafqazın əsas geosiyasi gücü: Azərbaycan!

NATO Müttəfiq Qüvvələri Komandanlığının Yaxın Şərq və Şimali Afrika üzrə keçmiş analitiki Maurizio Geri 2023-cü ilin dekabrında Cənubi Qafqazı region olaraq düşündürücü və aktual bir aspektdə təhlil edən məqalə dərc etdirib. Məqalə tanınmış "Eurasia Review" portalında nəşr edilib. Orada müəllif Cənubi Qafqazın yeni arxitekturasının formalaşdığını vurğulayır və Azərbaycanın bu prosesdə "açar dövlət", əsas geosiyasi güc olduğunu xüsusi qeyd edir. Əlbəttə, bu, yeni fikir deyildir, lakin NATO kimi nüfuzlu təşkilatın ekspertinin uzun illər müxtəlif regionlarla bağlı analiz aparması və Azərbaycanla əlaqəli son dərəcə əhəmiyyətli fikir bildirməsi maraqlıdır (bax: 1).

Aktual olan məqam ondan ibarətdir ki, M.Geri geosiyasi baxımdan *iki* mühüm faktora eyni kontekstdə nəzər salır – Cənubi Qafqazda yeni arxitekturanın formalaşması və yerli dövlətlərin bu prosesdə rolunu əlaqələndirir. Onun yazdıqlarından *iki* mühüm geosiyasi nəticə çıxara bilərik. Birincisi, Cənubi Qafqazda geosiyasi, geoiqtisadi əməkdaşlıq və təhlükəsizlik prosesləri geridönməz mərhələyə qədəm qoyub. İkincisi, bu dinamikanın və mənzərənin yaranmasında Azərbaycan aparıcı və həlledici rol oynayır.

Həm də bu məsələyə M.Geri Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı prizmasından nəzər salır. Yazır ki, "Azərbaycanla Aİ arasında münasibətlər yalnız özlüyündə tərəfdaşlıq faktı kimi deyil, həm də Avropa ilə Mərkəzi Asiya arasında və həmçinin Türkiyə ilə daha geniş əməkdaşlıq üçün körpü kimi strateji vacib məsələdir" (bax: əvvəlki mənbəyə).

Müəllif bu tezisini təsdiq edən faktorları da açıq göstərir – enerji əməkdaşlığı, Orta Dəhlizin inkişafı, "yaşıl iqtisadiyyat"a keçid. Onun həmin kontekstdə əsaslandığı faktlar çox əhəmiyyətlidir. Müəllifin arqumentlər kompleksi belədir: Avropa üçün enerji təhlükəsizliyi milli təhlükəsizlik kontekstində çox önəmlidir. Rusiya-Ukrayna müharibəsi fonunda bu məsələdə Cənubi Qafqazın rolu daha da artmaqdadır. Həmin aspektdə Azərbaycan əsas dövlət funksiyasını yerinə yetirə biləcək yeganə yerli ölkədir.

Arqumentlərinə davam edərək o, yazır ki, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalayıblar ki, ona əsasən də Bakı Avropaya qaz ixracını artıracaq. Həmin bağlılıqda Prezident İlham Əliyev mühüm bəyanatla çıxış edib. Azərbaycanın dövlət başçısı Avropaya qaz ixracının 2 dəfə artırılacağı barədə fikir bildirib. Eyni zamanda, COP29-a hazırlıq çərçivəsində Cənub Qaz Dəhlizinin genişlənməsi, "Həmrəylik Dairəsi"nin reallaşması və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi kimi məsələlər geniş müzakirə olunur (bax: əvvəlki mənbəyə).

İtaliyalı analitik vurğulayır ki, bu prosesdə "yaşıl keçid" əsas yer tutur. Belə ki, Azərbaycanın potensialı 27000 MBT qiymətləndirilir ki, buraya da külək, günəş, bioenerji və dağ çayları daxildir. Bu potensialın reallaşması üçün "Həmrəylik Dairəsi" adlandırılan layihəyə dair sənədi Azərbaycan, Gürcüstan, Ruminiya və Macarıstan 2022-ci ildə imzalayıblar (bax: əvvəlki mənbəyə). Həmin layihəyə digər Avropa dövlətləri də maraq göstərirlər.

Nəhayət, Azərbaycanın geosiyasi roluna M.Geri daha geniş coğrafi məkan kontekstində baxır. O, vurğulayır ki, Azərbaycan, faktiki olaraq, Orta Dəhlizi nəqliyyat-logistika funksiyasından bərpaolunan və

"yaşıl enerji" üzrə əməkdaşlıq marşrutuna çevirib! Bu baxımdan Azərbaycan həm də Zəngəzur Dəhlizi məsələsini həll edib!

Onu deyək ki, bunlar yalnız M.Gerinin qənaətləri deyildir. Çoxlu sayda təhlili məqalələr vardır ki, eyni məntiq və fikirlər ifadə edilir. Deməli, bu, istisna deyil, artıq sistemli xarakter almış fikir trendidir. Yəni, Azərbaycan regionun tam qəbul olunmuş əsas geosiyasi gücüdür!

## Lider faktoru və tarix

İndi qürurla ifadə etdiyimiz vurğulanan nəticələrə bir də tarixin keşməkeşli zamanından baxsaq, Azərbaycanın çətin yol qət etdiyini görərik. Ulu Öndər Heydər Əliyev olduqca mürəkkəb və ağır şəraitdə indi bütün xalqın bəhrəsini gördüyü enerji siyasətinin strategiyasını müəyyən etdi. Eyni zamanda, onu konkret addımlarla həyata keçirməyə başladı. Bu proses Prezident İlham Əliyevə 2022-ci ildə İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda ifadə etməyə əsas verdi ki, Azərbaycan enerji siyasətinin üçüncü mərhələsinə – "yaşıl enerji" ilə təminat mərhələsinə keçir (bax: 2).

Buradan müstəqil dövlətin uğurlarının əldə olunmasında liderin rolu məsələsinə siyasi-nəzəri keçid etməyə ehtiyac görünür. Bəli, Heydər Əliyev dahiyanə fəaliyyəti ilə Azərbaycanın dövlətçilik tarixini yenilədi. Prezident İlham Əliyev həmin xətti böyük məharət və uğurla inkişaf etdirir. Azərbaycan Prezidenti XXI əsrdə liderlikdə bənzərsiz nümunə göstərir.

Henri Kissincerin liderlərin tarixdə rolu ilə bağlı fikirləri bu tezisin işığında düşündürücüdür. O, liderlik strategiyası ilə bağlı 2022-ci ildə yazdığı "Liderlik: dünya strategiyasının altı dərsi" adlı əsərində vurğulayır ki, tarixdə liderlərin rolları fərqlidir. Bu, əslində, "kəsilməyən prosesdir". Böyük liderlər öz "cəmiyyətlərini özlərinin idealları səviyyəsinə yüksəltməyə çalışırlar". Lakin tarix boyu insanlar bu məsələni necə həll etmək üzərində düşünmüşlər (bax: 3, s. 26).

Bəli, indi bu məqalənin elmi məqsədi baxımından əsas sual budur: Heydər Əliyev Azərbaycanı ideallarına yaxınlaşdırmaq üçün necə fəaliyyət göstərib? Və Prezident İlham Əliyev həmin kursu davam etdirərək, postsovet məkanında Avropa üçün enerji təhlükəsizliyi məsələsində əvəzedilməz Liderə necə çevrilib!

Bu suala cavab axtarışları fonunda yeni mərhələdə Azərbaycanın xarici siyasət prioritetləri sırasında "Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi" müddəasının yer alması tam yerində görünür! Bir tezisdə *iki* mühüm aspekt dolğun ifadə edilib: "Yaşıl enerji" gündəliyi və iqlim dəyişikliyi ilə mübarizə vahid məntiqi müstəvidə təqdim edilib. Etiraf etmək lazımdır ki, nəinki Azərbaycan və Cənubi Qafqaz, hətta bütün dünya üçün siyasi və geosiyasi əhəmiyyətli bir məsələdir.

## "Yaşıl enerji" gündəliyi

Hər hansı bir məsələ aktual qəbul edilə və bu istiqamətdə fəaliyyət göstərilə bilinər. Lakin problemin bütövlükdə fəaliyyət gündəmi səviyyəsində qəbul edilməsi ayrı bir hadisədir. Bu o deməkdir ki, dövlət siyasətində həmin məsələ ardıcıl və sistemli nəzərə alınmaqla yanaşı, daim aktuallaşdırılmaqla fəaliyyət gündəliyinə çevrilir və həmin anlam çərçivəsində davamlı proqramlar həyata keçirilir. Azərbaycan "yaşıl enerji" və "yaşıl iqtisadiyyat" məsələsinə məhz həmin statusu qazandırıb. Həm regionda bunun aparıcı qüvvəsidir, həm də dünya miqyasında çox müxtəlif prosesləri stimullaşdırır.

Azərbaycanın həmin istiqamətdə fəaliyyəti bunu təsdiq edir. İlham Əliyev Çernobbioda enerji strategiyasının üçüncü mərhələsini təsadüfən elan etmədi. Bu o demək idi ki, müstəqil Azərbaycan bir dövlət olaraq həmin istiqamətdə sistemli fəaliyyət göstərəcək. Bunun üçün Bakının Brüssellə enerji sahəsində əməkdaşlıq memorandumu imzalaması hüquqi baza rolunu oynayır.

Deməli, Azərbaycan Prezidenti heç bir addımını beynəlxalq hüquqdan kənarda atmır. Öncə, fəaliyyətin hüquqi təməlini yaradır, sonra isə onun reallaşması üçün ciddi siyasi-diplomatik təşəbbüsdə bulunur. Bu məharətli siyasət həmişə öz müsbət nəticəsini verir. Başqa cür ola da bilməz, çünki tarixən siyasət qanun və hüquqla yanaşı addımlayıb. Və son olaraq hüquqa əsaslanan siyasət qalib gəldi.

Bu mənada Azərbaycan Prezidentinin həm Azərbaycanın "yaşıl enerji" potensialı, həm də Mərkəzi Asiya dövlətlərini və Avropanı bu prosesə qatmaqla atdığı addımlar tarixidir. 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair sazişin imzalanması çox əhəmiyyətlidir. İmzalama mərasimində Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen də iştirak etmişdi (bax: 4).

Digər tərəfdən, Azərbaycan və Aİ-nin birgə təşəbbüsü ilə bu proses Cənubi Avropa ölkələrinə və Balkanlarda bir sıra dövlətlərə də aid edilməyə başlandı. Yeni qaz interkonnektorlarının və boru xətlərinin inşası bunun əyani sübutudur. 2023-cü ildə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində söylədiyi nitqində Azərbaycan Prezidenti vurğulamışdı: "Gələcək planlarımız, təbii ki, qaz təchizatının

coğrafiyasını daha da genişləndirməkdir və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır. Bizim əsas hədəfimiz bərpaolunan enerji növləri ilə bağlıdır..." (bax: 5). Sözlərinə davam edən İlham Əliyev 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması üzrə Azərbaycan tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalandığını ifadə edib.

Bunlarla yanaşı, Prezident İlham Əliyev aşağıdakı mühüm bir informasiyanı da bəyan edib: "Bir neçə gün bundan əvvəl yenə də biz növbəti dostluq təzahürünün şahidi olmuşuq. Həm Serbiya, həm Bolqarıstan, həm Şərqi Avropa qrupuna daxil olan digər ölkələr Azərbaycanın namizədliyini dəstəkləyərək COP29 konfransının Azərbaycanda, Bakıda keçirilməsinə izn verdilər, öz dəstəyini göstərdilər. Bu, bir daha həm dostluğumuzun nümunəsidir, eyni zamanda, onu göstərir ki, baxmayaraq, Azərbaycanın zəngin neft və qaz resursları var, biz gələcəyimizi təmiz "yaşıl enerji"nin istehsalında və ixracında görürük. Əminəm ki, gün gələcək və buna oxşar mərasim "yaşıl enerji" layihələri ilə bağlı keçiriləcəkdir" (bax: əvvəlki mənbəyə).

**İqlim dəyişikliyi ilə mübarizə: Azərbaycan nümunəsi**

İndi iqlim dəyişikliyi və COP29-un təşkil edilməsi ətrafında baş verənlər onu göstərir ki, Azərbaycan Prezidenti verdiyi vədlərə tam olaraq əməl etməkdə davam edir. 2024-cü il aprel ayının 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyevin aşağıdakı fikri real olaraq iqlim dəyişikliyi və COP29-la bağlı vəziyyətin əhəmiyyətini dolğun ifadə edir. Dövlət başçısı vurğulayıb: "...bizim üçün COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir"! (bax: 6).

Bu o deməkdir ki, Azərbaycan "yaşıl enerji" ilə iqlim dəyişikliyi məsələsinə yalnız siyasi müstəvidə deyil, reallaşdırılması çox zəruri olan problemlərin həlli müstəvisində baxır. Azərbaycan rəhbərliyinin bu qətiyyəti proses iştirakçılarının əhval-ruhiyyəsinə ciddi təsir edir və onlar real addımlar atmağa başlayıblar. Bu baxımdan rəsmi Bakının COP29-a baxışının müxtəlif aspektləri olduqca əhəmiyyətlidir. Prezident İlham Əliyev vurğulanan forumda bəyan edib ki, "...COP29 sülh prosesinin nəticəsidir. Budəfəki COP-un mövzusu maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri sülh olacaqdır" (bax: əvvəlki mənbəyə).

Məsələnin bu cür qoyuluşu Azərbaycanın məharətlə iqtisadi və maliyyə məsələlərini təhlükəsizlik və əməkdaşlıqla sintez edə bilməsini ifadə edir. Konkret olaraq, Azərbaycan iqlim dəyişikliyində əməkdaşlıqla Cənubi Qafqazda sülhün təmini arasında daxili bir bağlantı yaradır. Bu isə tamamilə məntiqi bir gedişdir. Çünki iqlim dəyişikliyi və "yaşıl iqtisadiyyat" məsələləri bütövlükdə dünyaya aid olan məsələlərdir. Onu hansısa regional vəziyyətlə məhdudlaşdırmaq olmaz. Eyni zamanda, bu, həm də hər bir regionda sülh və barışın təmini zərurətini ortaya qoyur ki, real əməkdaşlıq mümkün olsun. Sabitlik olmayanda hansısa əməkdaşlıqdan danışmaq mücərrəddir.

Bu aspektdə Azərbaycan Prezidenti fəaliyyətin başlıca istiqamətini də bəyan edib. Ölkə rəhbəri deyib ki, "Bu gün Qafqaz qlobal miqyasda hadisələrin sürətlə inkişaf etdiyi bölgədir və onların düzgün məcraya yönəldilməsi üçün biz proaktiv olmalıyıq. Biz oturub gözləməli deyilik. Belə olduğu halda, biz uduzacağıq, rahatlaşmaq vaxtı deyil" (bax: əvvəlki mənbəyə).

Şübhə yoxdur ki, Prezident İlham Əliyevin praqmatik xarici siyasət kursu və müdrik diplomatiyası sayəsində COP29 tarixə eyni zamanda regionda sülhə dəstək baxımından uğurlu nəticələrə malik çox əhəmiyyətli beynəlxalq tədbir kimi düşəcək. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti 2024-cü il aprelin 26-da Berlində təşkil edilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentindəki çıxışında (bax: 7) BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyasını COP29-a gedən yol adlandırıb və onu Azərbaycanın Qlobal Cənub ölkələri ilə təmaslarının gücləndirilməsinə və Avropa ölkələri ilə əlaqələrinin uğurla inkişafına təkan verəcək yüksək nüfuzlu beynəlxalq platforma kimi dəyərləndirib (bax: 8).

Bütün bunların fonunda Azərbaycan "yaşıl enerji" və iqlim dəyişikliyinin qarşılıqlı əlaqəsi prizmasından konkret layihələr üzrə fəaliyyətini yeni səviyyəyə yüksəltməkdə qərarlıdır. Həmin sırada bərpaolunan enerji məsələsində Azərbaycan dünyanın digər regionlarında yerləşən dövlətlərlə geniş əməkdaşlıq mərhələsinə keçdiyi ayrıca vurğulanmalıdır. Bununla bağlı İlham Əliyevin aşağıdakı fikirləri maraq doğurur: "…burada olan sinerji ondan ibarətdir ki, elektrik enerjisi stansiyalarına göndərilməyən qənaət edilmiş qaz ona indi ehtiyacı olan və gələcəkdə də ehtiyacı olacaq Avropaya nəql ediləcək. Lakin Avropanın təkcə buna ehtiyacı olmayacaq. Avropaya əlavə yaşıl enerji mənbələri də tələb olunacaq. Çünki Avropa ölkələrinin yatırdığı nəhəng investisiyaları nəzərə alsaq, onların hələ də çatışmazlığı olacaq. Beləliklə, onlara əlavə enerji tələb olunacaq və biz bunun üzərində çalışırıq" (bax: 6). Bu proqram üzrə Azərbaycan Mərkəzi Asiya və Yaxın Şərq ölkələri ilə əməkdaşlığı daha da gücləndirəcək.

**"Yaşıl enerji" və iqlim siyasəti: yeni sintez**

Nəhayət, bütün bunlar onu göstərir ki, Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olan "Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi" fikri dərin düşünülmüş sistemli bir fəaliyyəti ifadə edir. Bununla Azərbaycan dünya üçün çox aktual olan bir problemin həllini məharətlə aktual enerji, iqtisadi və iqlim məsələlərinə bağlayır. Müstəqil dövlət üçün bu, faktiki olaraq, yeni geosiyasi səviyyəyə yüksəlmək deməkdir.

Əlbəttə, Azərbaycanın geniş və dərin geosiyasi proseslər mərhələsinə daxil olduğuna şübhə yoxdur. Ancaq təcrübə və indi atılan addımlar göstərir ki, rəsmi Bakı bunun öhdəsindən layiqincə gələcəkdir. Bundan başqa, Azərbaycan Prezidenti dinamik və uğurlu fəaliyyəti ilə yuxarıda qeyd olunan aspektlərdə proseslərin sintez halında davam etməsini təmin edəcəkdir.

Bunlar onu ifadə edir ki, Azərbaycanın xarici siyasətində "yaşıl enerji" məsələsi və iqlim dəyişikliyi ilə mübarizə müstəqil dövlətçilik maraqları kontekstində mükəmməl təşkil edilməkdədir. Bakı bu istiqamətdə davamlı olaraq fəaliyyət göstərir. Xarici siyasətin bu istiqaməti özü ilə bərabər digər istiqamətlərin də uğurlu olmasını təmin edəcəkdir. Çünki ,faktiki olaraq, "yaşıl enerji", "yaşıl iqtisadiyyat" və iqlim dəyişikliyi ilə mübarizə dünyanın hər bir dövlətinin problemidir. Buradan yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin çox maraqlı bir özəlliyi aydın olur.

Azərbaycan qarşıdakı tarixi mərhələdə milli, regional və qlobal aktuallıq kəsb edən müxtəlif xarakterli problemləri dövlətçilik maraqları kontekstində sistemləşdirməkdə və həyata keçirməkdə qərarlıdır. Bu isə, təbii ki, Azərbaycanın dünya miqyasında geosiyasi güc kimi yeri və mövqeyini daha da möhkəmləndirəcək.

**Mənbələr**


1. Maurizio Geri. Can EU And Azerbaijan Increase Energy-Transport Cooperation To Also Reinforce Connection Between Europe And Central Asia? – Analysis // eurasiareview, 23.12.2023 / URL: https://www.eurasiareview.com/14122023-can-eu-and-azerbaijan-increase-energy-transport-cooperation-to-also-reinforce-connection-between-europe-and-central-asia-analysis/

2. İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak edib // 2 sentyabr 2022 / URL: https://president.az/az/articles/view/57093

3. Kissinger, Henry. Leadership: Six Studies in World Strategy. New York: Penguin Publishing Group, 2022, 528 pp.

4. Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Saziş imzalanıb // "Azərbaycan" qəzeti, 17.12.2022 / URL: https://azerbaijan-news.az/az/posts/detail/buxarestde-azerbaycan-gurcustan-ruminiya-ve-macaristan-hokumetleri-arasinda-yasil-enerji-sahesinde-strateji-terefdasliga-dair-sazis-imzalanib-1671269566

5. İlham Əliyev Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində iştirak edib // 10 dekabr 2023 / URL: https://president.az/az/articles/view/62468

6. ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilib. Prezident İlham Əliyev forumda iştirak edib // AZƏRTAC, 24.04.2024. URL:https://azertag.az/xeber/ada_universitetinde_cop29_ve_azerbaycan_uchun_yasil_baxis_movzusunda_beynelxalq_forum_kechirilib__prezident_ilham_eliyev_forumda_istirak_edib_yenilenib__2_video-2975923

7. Prezident İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib / URL: https://azertag.az/xeber/prezident_ilham_eliyev_berlinde_15_ci_petersberq_iqlim_dialoqunun_yuksek_seviyyeli_seqmentinde_istirak_edib__yenilenib_3_video-2976559

8. Hüseynli, Əli. COP marafonunun 29-cu Azərbaycan poliqonu / URL: https://xalqqazeti.az/az/ekologiya/176739-cop-marafonunun-29-cu-azerbaycan-poliqonu